

# “Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 14 sentyabr 2024-cü il №69 (2880) https://mod.gov.az Qiyməti 30 qəpik


***"N" hərbi hissəsində qürurla, başı buludlara dəyən dağların qoynunda, Vətənimizin müdafiəsinin müqəddəs yükünü çiyinlərində daşıyan əsgərlərimizin görüşünə tələsirik. Yüzlərlə metr yüksəklikdə yerləşən bölmələrimizə yaxınlaşdıqca dağların sərt küləyi üzümüzə vurur. Bu, əsgərlərimizin çətin iqlim şəraitinə baxmayaraq, Vətənin müdafiəsində qətiyyətlə dayandıqlarının, həm də Vətənə olan sevginin və sədaqətin simvoludur. Əsgərlərə yaxınlaşdıqca onların qəlbində yanan vətənpərvərlik atəşinin nə qədər böyük və sarsılmaz olduğunu duyuruq. Məhz həmin hərbi qulluqçuların hər addımı, hər nəfəsi Vətənin ərazi bütövlüyü üçündür. Bu müqəddəs torpaqların keşiyində dayanan əsgərlər dağların vüqarını öz xarakterlərinə hopdurub, Vətən sevgisini hər daşda, hər qayada yaşadırlar.***

*Reportaj*

## “Hərbi xidmət Vətənə sevgidir”



Gizir Vüqar Nağıyev şəxsi heyəti təlimatlandırır. Komandir təhlükəsizlik qaydalarına ciddi riayət olunması, xidmətin mütəşəkkil təşkili və qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında icrası ilə bağlı ətraflı məlumatları şəxsi heyətə çatdırır. Hər bir əsgərin yüksək intizama və hazırlıq səviyyəsinə malik olduğunu görürük.

Məlum olur ki, şəxsi heyət döyüş hazırlığını yüksək səviyyədə saxlamaq, müxtəlif şəraitlərdə düşmən təxribatlarının qarşısını almaq üçün nəzəri biliklərini və praktiki bacarıqlarını daim təkmilləşdirir. Hər bir əsgər öz vəzifəsini dəqiq bilir və əmr gəldikdə tərəddüd etmədən onu icra etməyə hazırdır. Bu ruh yüksəkliyi və hazırlıq Vətənə sonsuz sevginin bariz göstəricisidir.

Əsgər Nicat Bayramov Vətən keşiyində dayanmağın nə qədər böyük şərəf olduğunu ürək dolusu ifadə edir. O, hər gün sərt hava şəraitində və çətin relyefdə xidmət etməyin təkcə vəzifə deyil, həm də milli ruh və mənəvi borc olduğunu da vurğulayır. Əsgər Nicat Bayramov Vətənin hər qarış torpağını qorumağın ən mühüm vəzifə olduğunu deyir: “Vətənin müdafiəsində dayanmaq yalnız silah tutmaq deyil, həm də dövlətin suverenliyinin və əmin-amanlığının keşiyində durmaq deməkdir”.

Əsgər Manaf İmanov Vətəni qorumağın onun üçün də ən böyük həyat amalı olduğunu vurğulayır: "Vətənin keşiyində dayanmaq, mənim üçün hər şeydən önəmlidir. Vətənin təhlükəsizliyini qorumaq şərəfdir. Əsgər üçün Vətənin hər bir qarışı müqəddəsdir, bu torpağın hər daşı, hər qayası Vətəndir. Əcdadlarımızın qəhrəmanlıq yolunu davam etdirmək, bu şərəfli mirası gələcək nəsillərə ötürmək bizim borcumuzdur".

Əsgər Fuad Hüseynovun hər bir kəlməsi qətiyyət və vətənpərvərliklə doludur. "Mən əslən Ağdamdanam. Bu torpaqlar mənim ailəmin, ata-babalarımın yurdudur. Vaxtilə gözəlliklər içində olan Ağdam düşmən işğalı altında olarkən viran qalıb. Hazırda orada bərpa-quruculuq işləri aparılır. Qarabağın hər qarış torpağı müqəddəsdir. Hər dəfə burada silahı əlimə aldıqda işğaldan qurtuluş döyüşlərini xatırlayırıq. Mən və əsgər yoldaşlarım Vətən sevgisinin gücü ilə doğma torpağımızın keşiyində dayanırıq".

Əsgər Eltun Abbaslı da Vətənin müdafiəsində dayanan oğullarımızdandır. Əsgərimizin məğrurluğu duruşundan, baxışından, danışığından hiss olunur. Eltunun üzündəki qətiyyət onun Azərbaycan əsgəri adını şərəflə yaşatdığının təsdiqidir. O bildirdi ki, Vətənin müdafiəsində dayanan hər əsgər kimi, mənim də tək bir məqsədim var - Vətəni qorumaq. Bu müqəddəs vəzifənin ona verdiyi gücü və qüruru hiss etdirən Eltun, hər bir əsgərin döyüş mövqeyində bu ruhla dayandığını vurğulayır.

Əsgər İlkin Zeynalov səmimi sözləri ilə Vətənə sonsuz sevgi ilə xidmət etdiklərini bildirdi:

**(Ardı 4-cü səhifədə)**

## “Sonsuz qardaşlıq- III” çoxmillətli təlimi davam edir



*Qazaxıstanın Türküstan vilayətində yerləşən Orda poliqonunda keçirilən "Sonsuz qardaşlıq - III" çoxmillətli təlimi davam edir.*

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan, Qazaxıstan, Türkiyə, Pakistan, Qətər və Özbəkistan xüsusi təyinatlıları poliqonda yaradılmış təlim nöqtələrində taktika, atış, snayper, dağ və paraşüt hazırlığı üzrə praktiki məşqləri yerinə yetirirlər.

Çoxmillətli qruplar halında keçirilən döyüş hazırlığı məşğələləri iştirakçı ölkələrin hərbi qulluqçularının təcrübəsindən bəhrələnməyə və onların tətbiq etdiyi forma və metodları mənimsəməyə imkan yaradır.

Təlimin növbəti mərhələsində iştirakçı bölmələrin qarşısında yaşayış məntəqəsindəki qeyri-qanuni silahlı dəstənin aşkar edilməsi və zərərsizləşdirilməsi üzrə təlim-döyüş tapşırığı qoyulub.

Real döyüş şəraitinə uyğunlaşdırılmış təlimdə xüsusi təyinatlılar tapşırıqların icrası zamanı yüksək peşəkarlıq nümayiş etdiriblər.

Bu cür təlimlər bölgələrdə sülhün və təhlükəsizliyin təmin olunması məqsədilə səylərin birləşdirilməsinə xidmət edir və şəxsi heyətin qarşılıqlı əlaqədə qarşıya qoyulmuş tapşırıqların uğurlu icrasına böyük töhfə verir.






3-cü səhifədə

Vətən Anadır, Ana isə Vətən



4-cü səhifədə

“Şəhid övladları dövlətimizə və xalqımıza əmanətdir”



5-ci səhifədə

Azərbaycan əsgərindən güc al, bayrağım!..



6-cı səhifədə

Azərbaycan və Türkiyə qardaşlığının əbədi rəmzi



8-ci səhifədə

Göygöl rayonunda “Əsgərə məktub” layihəsi keçirildi

# Azərbaycan müdafiə naziri Türkiyənin yeni hərbi attaşesini qəbul edib

*Türkiyə Respublikasının ölkəmizdə yeni təyin edilən hərbi attaşesi general-mayor Gaffar Gören müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim olunub.*



Müdafiə naziri türkiyəli qonağı salamlayaraq onu ölkəmizdə fəaliyyətə başlaması münasibəti ilə təbrik edib.

Müdafiə Nazirliyi xəbər verir ki, general-polkovnik Zakir Həsənov iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlığa da müstəsna təsirini xüsusi vurğulayıb. Azərbaycan-Türkiyə əlaqələrinin dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslandığını bildirib.

General-polkovnik Zakir Həsənov türkiyəli hərbi attaşeyə Azərbaycan-Türkiyə arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində gələcək fəaliyyətində uğurlar arzulayıb.

General-mayor Gaffar Gören isə öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirib, Azərbaycanda hərbi attaşe kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edib. Ölkələrimiz arasında hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi naminə səylərini əsirgəməyəcəyini bildirib.

Ölkəmizdə hərbi attaşelik fəaliyyətini başa vuran general-mayor Soner Oruçoğlunun da iştirak etdiyi görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın yeni perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

# Naxçıvan istiqamətində mövqelərimiz atəşə tutulub

Sentyabrın 11-i saat 10:50 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən üzbəüz mövqelərdən atıcı silahlar vasitəsilə atəşə tutulub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 12-si saat 00:15-dən 01:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Paşalı rayonunun Horadis yaşayış məntəqəsi istiqamətindəki mövqelərindən ordumuzun Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Yuxarı Buzqov yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini bir neçə dəfə atıcı silahlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

# Ayxan Hacızadə: 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil

Azərbaycan Konstitusiyası ilə Ermənistan Konstitusiyası arasında paralellik və bərabərlik yaratmaq cəhdi heç bir nəticə verməyəcək. Ermənistan Konstitusiyasından fərqli olaraq, Azərbaycan Konstitusiyasında istinad olunan 1991-ci il Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı və 1918-ci il İstiqlal Bəyannaməsində Ermənistana qarşı heç bir ərazi iddiası mövcud deyil.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Ermənistan baş nazirinin 10 sentyabr tarixində "İrəvan dialoqu" adlı forumda çıxışı zamanı Azərbaycana qarşı səsləndirdiyi fikirlərə dair şərhində yer alıb.

"Ermənistan tərəfinin sülh müqaviləsi layihəsində mövcud olan "heç bir tərəf sülh sazişi çərçivəsində öz öhdəliklərini yerinə yetirməməsi ilə əlaqədar öz daxili qanunvericiliyinə istinad edə bilməz" müddəasını qeyd edərək, bu ölkənin Konstitusiyasında yer alan ərazi iddiasının zərərsiz olduğunu bildirməsi də tamamilə əsassızdır. Bir daha qeyd edirik ki, heç bir beynəlxalq sazişin Konstitusiyadan üstün olmadığı hər kəsə yaxşı məlum olan faktdır", - deyə A.Hacızadə vurğulayıb.

# Bakıda strateji kommunikasiyalar mövzusunda kurs keçirilib





*Azərbaycan Respublikası Müdafiə Nazirliyi və NATO-nun Brunssum Birgə Qüvvələr Komandanlığının təşkilatçılığı, Medianın İnkişafı Agentliyinin dəstəyi ilə Bakıda strateji kommunikasiyalar mövzusunda kurs keçirilib.*

Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində keçirilən kursda dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Müdafiə Nazirliyi xəbər verir ki, iştirakçılara müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası ilə bağlı təqdimat verilib.



Kursda, həmçinin NATO-da strateji kommunikasiyanın təşkili və hərbi-ictimai əlaqələrin qurulması mövzusunda brifinqlər təqdim edilib, eləcə də qarşılıqlı müzakirələr aparılıb və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Kurs müddətində iştirakçılar Nazirliyin nəşriyyat, multimedia və redaksiya fəaliyyəti ilə tanış olub, müvafiq tapşırıqları yerinə yetiriblər.

Sonda iştirakçılara sertifikatlar təqdim edilib.

# Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin birgə keçirdiyi maarifləndirmə tədbirləri davam edir







Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə "N" hərbi hissəsində şəxsi heyətin hüquqi maarifləndirilməsi istiqamətində birgə tədbir keçirilib.

Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, döyüşlərdə yaralananlara şəfa arzulanıb.

Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçiləri, baş ədliyyə müşaviri Firad Əliyev, ədliyyə müşaviri İsmayıl Əliyev, Tərtər hərbi prokuroru, ədliyyə polkovniki Emin Vəliyev, eləcə də digər şəxslər hərbi qulluqçular qarşısında hüquqi maarifləndirici məzmunlu çıxışlar ediblər. Ardınca şəxsi heyəti maraqlandıran suallar cavablandırılıb, eləcə də hərbçilərin qayğı və problemləri ilə maraqlanılıb.

# ƏÜO-nun artilleriya bölmələri ilə nümunəvi döyüş atışlı taktiki təlim keçirilib





*Əlahiddə Ümumqoşun Ordunun (ƏÜO) 2024-cü il üçün hazırlıq planına uyğun olaraq, artilleriya bölmələri ilə nümunəvi döyüş atışlı taktiki təlim keçirilib.*

Müdafiə Nazirliyi xəbər verir ki, təlimin planına əsasən, bölmələr atəş mövqelərinin tutulması, artilleriya silah sistemlərinin döyüş tətbiqinə hazırlanması və digər tapşırıqlar üzrə fəaliyyətləri yerinə yetiriblər.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə artilleriya bölmələri şərti düşmənin planlı və plandankənar hədəflərini aşkar edərək sərrast atəşlərlə məhv edib.

Təlimin keçirilməsində əsas diqqət atəş dəstək qrup komandirlərinin və nizamlayıcıların hədəflərin koordinatlarını dəqiq müəyyən etməsi, məsafələrin və bucaqların düzgün ölçülməsi, eləcə də atəşin idarə edilməsi zamanı funksional vəzifələrinin praktiki icrasına və döyüş vərdişlərinin təkmilləşdirilməsinə yönəldilib.

# Vətən Anadır, Ana isə Vətən



Bu gün şanlı ordumuzun sıralarında minlərlə gənc xidmət edərək, ölkəmizin müdafiəsini möhkəmləndirir. Gənclərimiz yiyələndiyi peşəyə, hərbi mundirə sədaqətlə xidmət edirlər. Hərbi peşəyə yiyələnmək insandan Vətən sevgisi ilə yanaşı, dərin praktiki və nəzəri biliklər tələb edir. Belə mənəvi keyfiyyətlərə malik olan komandirlər təcrübələrini tabeliyində olanlara aşılayır, onları bacarıqlı əsgərlər kimi formalaşdırırlar. Hərbi xidmət həyatına yeni qədəm qoyan əsgərlərimizin döyüşçü vərdişlərinin formalaşması, ixtisas biliklərinin dərindən mənimsənilməsi birbaşa peşəkar komandirlərimizin nəzarəti altında həyata keçirilir.

Salyan rayonunda dünyaya göz açan Azər Mikayılov 2013-2016-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2016-2020-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsil alıb, "leytenant" rütbəsi ilə xidmətə başlayıb.

- Gənc yaşlarımdan hərbi peşəyə və hərbi mundirə olan sevgim həyat yolumu bu istiqamətdə qurmağımı şərtləndirdi. Böyüklərimin xeyir-duası ilə hərbçi peşəsini seçdim. Hərbi təhsili aldıqdan sonra zabit olaraq xidmətə başladım. Tabeliyimdə olan əsgərlərin nümunəvi xidmətlər və üstün keyfiyyətlərlə seçilməsi üçün böyük səylə çalışmışam. Bu gün şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksək səviyyədə saxlamaq üçün yuxarı komandanlıq tərəfindən qarşıya qoyulan tapşırıqları uğurla icra edirəm. Tabeliyində olanın döyüş ruhunun, Vətən sevgisinin yüksək olması hər bir komandirin vəzifə borcudur. Bölməmizin şəxsi heyəti xidmətinə və vəzifə borcuna ciddi yanaşır. Vətəni qorumağın ən ali vəzifə olduğunu dərk edən şəxsi heyət üzərinə düşən məsuliyyəti anlayır, övladlıq borcunu layiqincə ödəmək üçün xidmətini yüksək səviyyədə aparır. Əsgəri döyüşə hərtərəfli hazır etmək hər bir komandirin başlıca qayəsidir. Təbii ki, vətənpərvərlik hissi yüksək olan əsgərlərlə çiyin-çiyinə xidmət etmək mənim üçün də qürurvericidir. Həm də şəxsi heyətin uğurları hər bir komandir üçün başucalığıdır, - deyə zabit bildirdi.

Vətəni qorumağa borclusan. Vətəni Ana ilə bir tuturlar, çünki hər ikisinə olan sevgi ən ülvi hiss, ən ali bağlılıqdır. Minlərlə soydaşımız Ana Vətən üçün sinəsini sipər edib. Vətən elə Ana, Ana isə Vətəndir. Bu iki məfhumu bir-birindən ayırmaq mümkün deyil. Hərbçi peşəsi vətənpərvərlik peşəsidir. Hər sahədə çalışmaq gözəldir, amma vəzifəsi Vətəni qorumaq olan hərb peşəsi ən ali peşədir. Əsgərlərin də hərbi mühitə alışması üçün əlimdən gələni edirəm. Əsgər komandirinin güzgüsüdür. Bunun üçün də zabit şəxsi heyət üçün nümunə olmalıdır. Əsgərlərin qayğıları ilə mütəmadi maraqlanıb, onların bacarıqlı hərbçi, vətənpərvər gənclər kimi formalaşması üçün əlimdən gələni əsirgəmirəm.

Azərbaycan əsgəri son illər ərzində bütün dünyaya Vətən sevgisi anlayışını dərk etdirməyi bacardı. Bütün dünya gördü ki, Azərbaycan əsgərinin Vətənə bağlılıq hissinin qarşısında heç bir işğalçı qüvvə tab gətirə bilməz. Vətən sevgisi ən ali hissdir" - deyən gənc zabitin fikirləri bizi bir daha əmin etdi ki, vətənpərvər zabitlərimiz əsgərlərimizdə Vətən sevgisinin yüksək səviyyədə saxlanılmasına çalışırlar. Əsgərlərin xidmət müddətində komandirlərinin həm şəxsi keyfiyyətlərini, həm də döyüşçü bacarıqlarını öyrənməsi bizim gələcəyə olan inamımızın artmasının başlıca səbəbidir. Öz sələflərinin açdığı yolda bu gün mətin addımlarla irəliləyən gənc zabitlərimiz əsgərlərimizin də yoluna aydınlıq saçan işıq zərrələridir.

**Kapitan
Fuad CƏFƏROV
"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Hərbi xidmətin başlıca qayəsi vətənpərvərlikdi



Rəhim Namazlı Bakı şəhərində anadan olub, 246 saylı orta məktəbdə təhsil alıb. O da həmyaşıdları kimi 2016-cı ilin Aprel döyüşlərinin ruhu ilə yeniyetmələşib, gəncləşib, formalaşıb. Hər gün dərs başlayan kimi müəllimlər onların da sorğularını cavablayıb, bu cavablar ümidə dönüb. Könlü döyüşlərdə dolaşan məktəblilərin inamını coşdurub. Rəhim də Aprel döyüşlərini, qazanılan qələbəni bu ovqatla yaşayıb. Müəllimlərinin "Siz bu döyüşləri tam qələbə ilə tamamlayacaq döyüşlərin iştirakçısı olacaqsınız..." - demişdi. Hamısı ayları bu niyyətlə il etmişdi...

Orta məktəbi bitirdi. Sənədlərini İqtisad Universitetinə verdi. Qəbul olundu. Söhbətləşəndə tələbə yoldaşlarına orta məkəbdə oxuyanda müəllimlərinin dediklərini də xatırlatmışdı. Bu xatırlatma tələbələrin hamısının ruhunda tərpəniş yaratmışdı. Bu tərpəniş Vətən müharibəsi başlayan günün sabahı, 2020-ci il sentyabrın 28-də onları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə aparmışdı. Orada tələbələri dinləmişdilər, qürurlanmışdılar, ancaq döyüşə aparmamışdılar; "Tələbələrin döyüşə getməsinə zərurət yoxdu, döyüşü güclü ordumuz aparacaq, Qələbə də qazanacaq..." - demişdilər. Həm də demişdilər ki, siz döyüşləri Böyük Qələbə ilə başa çatdıranlarımızın işğaldan azad etdiyi ərazilərdə xidmət edəcəksiniz. Tələbələr Vətən müharibəsinin döyüşlərini bu işıqlı inamla izləmişdilər. Bu işıqlı inam onların könül dünyasının səyyarəsinə dönmüşdü...

Noyabrın 8-i gecəsi işıqlı gecəydi...

Noyabrın 8-də xalqımız günlərin ən gözəlini yaşadı. Ahıllar da, uşaqlar da, analar da, bacılar da, gənclər də. Rəhim bu sevinci tələbə yoldaşlarıyla daha duyğusallıqla, onlarla nəfəs-nəfəsə yaşamışdı.

Rəhim də, tələbə yoldaşları da universiteti bitirmişdilər. Hərbi xidmətə çağırılmışdılar. Rəhim Namazlı da hərbi xidmətə getdi, gənc əsgər hazırlığı kursunu bitirdi, Hərbi And içdi. O da Vətən müharibəsində Zəfər qazananların davamçısı kimi xidmətə başladı.

- Tələbə olanda bizi qürurlandıran Zəfər hər birimizin hərbi xidmətinin mahiyyətini də müəyyənləşdirib: Azərbaycanın tam bərpa olunmuş ərazi bütövlüyünü qorumaq! Belə də xidmət etdik, - Rəhim Namazlı dedi. Bu fikirləri təkcə əsgərin hərbi xidmət haqqında düşüncələri deyil, həm də hərbi qulluqçunun - əsgərin vətəndaşlıq amalı bildik.

Hərbi xidməti başa çatanda xidmətini zabit kimi davam etdirmək istəmişdi. Komandirinə "Ehtiyat zabit hazırlığı" kursunda oxumaq istədiyini bildirmişdi. İstəyinə razılıq vermişdilər...

Müdafiə Nazirliyinin Təlim və Tədris Mərkəzində "Ehtiyat zabit hazırlığı" kursunda təcrübəli zabitlərdən hərbi ixtisası üzrə biliklər sistemini mənimsədi. Təcrübi məşğələlərdə, çöl təlimlərində biliklərini təkmilləşdirdi. Müddət başa çatdı. Buraxılış imtahanlarını uğurla verdi, bu uğur onun özünə inamının təsdiqi idi. Kursu "Mən də peşəkar zabit olacam!" - qətiyyəti ilə bitirdi...

Zabit idi. Leytenant kimi qoşunlarda xidmətə göndərildi. "Vətənə xidmətimin yeni mərhələsi başlayır. İndi də nümunəvi xidmət edəcəm, əsgər kimi komandirlərimin də, əsgər yoldaşlarımın da etibarını qazanmışdım. İndi zabit kimi komandirlərimin də, zabit yoldaşlarımın da, tabeliyimdə olan şəxsi heyətin də etibarını qazanacam...", - Rəhimin özünə ünvanladığı kəlmələr and kimi səslənmişdi...

Gənc zabit Rəhim Namazlı nümunəvi xidməti ilə fərqlənir. Taqımın şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının həmişə yüksək səviyyədə saxlanması üçün bütün mövcud təlimatlardan, ədəbiyyatlardan, tövsiyələrdən səmərəli istifadə etməyə çalışır.

Leytenant Rəhim Namazlı dedi ki, taqımımız Ali Baş Komandanın istənilən döyüş əmrini yerinə yetirməyə hazırdır. Yüksək döyüş hazırlığına malik olan Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qətiyyətlə, dövlətə, dövlətçiliyə sədaqətlə müdafiə etməyə qadirdir. Biz qadirliyin zabitləriyik, əsgərlərimiz qadirliyin əsgərləridir....

Hərbi xidmət dövlət üçündü, dövlətçilik üçündü - Vətən üçündü, başlıca qayəsi vətənpərvərlikdi; leytenant Rəhim Namazlı vətənpərvər zabitdi...

**Kapitan
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"**



# “Şəhid övladları dövlətimizə və xalqımıza əmanətdir”

*Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin (BHİK) təşkilatçılığı ilə 15 Sentyabr - Bilik Günü münasibətilə 2024-2025-ci tədris ili üzrə birinci sinfə gedəcək şəhid övladları ilə görüş keçirilib. Tədbirdə Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev, şəhid ailələri, ictimaiyyətin nümayəndələri və digər rəsmi şəxslər iştirak edirdilər.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev çıxış edərək məktəblərə ilk qədəmlərini qoyacaq şəhid övladlarını qarşıdan gələn Bilik Günü münasibətilə təbrik etdi, dərslərində müvəffəqiyyətlər arzuladı. Dövlətimizin şəhid ailələrinə hər zaman yüksək diqqət və qayğı göstərdiyini vurğuladı. Qədirbilən xalqımızın şəhidlərimizin əziz xatirəsini daima uca tutduğunu və onların Vətənə yadigar qalan övladlarına hər zaman xüsusi rəğbət bəslədiyini qeyd etdi. "Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqətində olan bu məsələ ilə bağlı ən ali səviyyədə müvafiq göstərişlər verilir və bu kateqoriyadan olan insanların qayğılarının həlli istiqamətində mühüm tədbirlər həyata keçirilir. Dövlət başçısının tapşırığı ilə mütəmadi olaraq şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlər keçirilir, onların məişət qayğıları dövlət xətti ilə həll olunur. Bir sözlə, dövlətimiz tərəfindən şəhid ailələrinin sosial müdafiəsinin yüksək səviyyədə təşkil edilməsi istiqamətində həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. BHİK kollektivi də bu istiqamətdə mütəmadi olaraq işlər aparır, tədbirlər, görüşlər, layihələr həyata keçirir. Ənənəmizə sadiq qalaraq bu il də birinci sinfə gedəcək 50-yə yaxın şəhid övladına məktəb ləvazimatları və müxtəlif hədiyyələr təqdim etdik. Bu görüşün ərsəyə gəlməsində dəstəyi və zəhməti olan hər kəsə minnətdarlığımı bildirirəm. Şəhid ailələrinə, müharibədə sağlamlığını itirən şəxslərə xidmət etmək, onların qayğıları ilə maraqlanmaq hər birimizin mənəviyyat borcudur. Tarixi Zəferimizi torpaqlarımızın azadlığı uğrunda canından keçən, sağlamlığını itirən igid oğullarımıza borcluyuq. Onların şücaəti, mərdliyi nəticəsində xalqımız Böyük Qələbəni bayram etdi. Allahdan bütün şəhidlərimizə rəhmət diləyir, ruhları qarşısında baş əyirik".





Vətən Müharibəsi Qəhrəmanı polkovnik Anar Mirzəyev çıxış edərək döyüş yoldaşlarının övladları, yaxınları ilə bir arada olmaqdan qürurlandığını bildirdi: "Bu görüşdə duyğusal hisslər keçirirəm. Onların ataları döyüş yoldaşlarım olub. Hər birinin üzündə şəhid atalarının simasını görürəm sanki. Bu uşaqların hər biri bizə əmanətdir. Onlar bütün Azərbaycan xalqının övladlarıdır. Onların ataları ərazi bütövlüyümüz, dövlət suverenliyimiz, eləcə də gələcək nəsillərin sülh, əmin-amanlıq şəraitində yaşamaları üçün canlarını fəda etdilər. Arzu edirəm ki, siz tam orta təhsilinizi uğurla başa vurub, yüksək nəticələrlə ən yaxşı ali təhsil ocaqlarının tələbəsi olasınız. Əminəm ki, siz gələcəkdə vətənpərvər, milli-mənəvi dəyərlərimizə bağlı olan, savadlı və peşəkar kadrlar kimi dövlətçiliyimizə layiqincə xidmət edəcəksiniz. Siz qalib ölkənin, qalib dövlətin, qalib atanın övladlarısınız.Yeni tədris ili və 15 Sentyabr - Bilik Günü münasibətilə, şəhid övladları başda olmaqla, bütün şagirdlərimizi təbrik edir, uğurlar arzulayıram. Belə mötəbər görüşün keçirilməsində zəhməti olan hər kəsə dərin minnətdarlığımı çatdırıram".

Çıxışlardan sonra BHİK-in əməkdaşları məktəb ləvazimatlarını və hədiyyələri şəhid övladlarına təqdim etdilər.

Şəhid Elzar Yusubovun anası Günəş Yusubova şəhid ailələri adından çıxış edərək onlara göstərilən yüksək diqqət və qayğıya, övladlarının adının daima uca tutulmasına görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Sonda tədbir iştirakçıları həm də şəhid Mirbala Rəsulovun qızı Zəhra Rəsulovanı doğum günü münasibətilə təbrik etdilər, musiqi sədaları altında tort kəsdilər.

**Lalə HÜSEYNOVA**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



# “Hərbi xidmət Vətənə sevgidir”

**(Əvvəli 1-ci səhifədə)**

- Bizim üçün Vətəni qorumaq həyatın mənasıdır. Bu torpaqlar bizim kimliyimizdir, ruhumuzdur. Hər bir əsgər bilir ki, onun üzərinə düşən bu müqəddəs vəzifə, Azərbaycanın təhlükəsizliyi üçün vacibdir.

Əsgər İlham Həsənov da ürəkdolusu və vətənpərvərliklə danışır, İlham əsgər yoldaşları ilə birlikdə hərbi xidmətin hər gününün onun üçün həm qürur, həm də məsuliyyət olduğunu deyir. O, döyüş meydanında birlik və həmrəyliyin ən böyük güc olduğunu xüsusi qeyd edir: "Biz bir-birimizin yanında dayanaraq, çiyin-çiyinə bu müqəddəs missiyanı icra edirik. Hər bir əsgərin ürəyində eyni arzu var - Vətənin təhlükəsizliyi, xalqın sülh, əmin-amanlıqla yaşaması. Biz bu uğurda heç bir çətinlikdən çəkinmirik, bilirik ki, arxamızda bizə güvənən xalqımız var".

Əsgər Murad Abbaslı hərbi peşəyə olan marağının formalaşmasında təcrübəli komandirlərinin böyük rolunu xüsusi vurğulayır. Muradın dediklərindən zabitlərin aşıladığı biliklərin necə əhəmiyyətli olduğunu dərindən hiss etmək mümkündür:





"Hazırlıqlı əsgər kimi formalaşmağımda ən böyük təsiri təcrübəli komandirlərim göstərdi", - deyə Murad qürurla danışır. "Onların bilikləri, peşəkarlığı və xidmətdəki nümunəvi davranışları mənə hərb sənətinin nə qədər vacib və şərəfli olduğunu anlamaqda kömək etdi".

Murad komandirlərinin ona yalnız hərbi texnikalar və taktikalar haqqında deyil, həm də liderlik və əsgərlik ruhunun önəmi barədə çox şey öyrətdiyini də qeyd edir: "Komandirlərim hər bir əsgərin potensialını üzə çıxarmaq, onların güclü tərəflərini inkişaf etdirmək və çətin vəziyyətlərdə necə doğru qərar vermək lazım olduğunu göstərirdilər. Onların öyrətdikləri dəyərli məsləhətləri mənim də əsgər kimi püxtələşməyimi təmin etdi".

"N" hərbi hissəsində hərbi qulluqçuların xidməti bir daha təsdiqləyir ki, Azərbaycan Ordusunda vətənpərvərlik və əzmkarlıq ruhunda əsl igidlər formalaşdırılır. Əsgərlər üçün hərbi xidmət Vətənə böyük sevgidir.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan əsgərindən güc al, bayrağım!..



*2016-cı ilin Aprel döyüşləri də müharibə tariximizdi, Tovuz döyüşləri də, Vətən müharibəsi də, 2022-ci ilin, 2023-cü ilin sentyabr döyüşləri də. Bu döyüşlərin hər biri istər ayrılıqda, istərsə də vəhdətdə Azərbaycan Ordusunun qüdrət salnaməsi kimi tarixləşib, belə öyrənilir, belə də xatırlanacaq...*

2022-ci ilin sentyabr döyüşlərindən az sonra Kəlbəcərdə ezamiyyətdəydim. Zabitlərdən biri Azərbaycan ordu hissələrinin son döyüşlərindən danışmışdı. Demişdi ki, bu döyüşlər də Azərbaycan əsgərinin döyüş əzminin, qələbə ruhunun qüdrəti kimi tarixləşdi. Əsgərlərimiz yeni mövqelərdə möhkəmlənir. Ali Baş Komandanın döyüş əmri ilə Azərbaycanın ərazi bütövlüyü tam bərpa olunacaq...

Zabitin nişan verdiyi mövqelərdə əsgərlərimizlə kəlmələşməyə tələsmişdik...

Yüksəkliklərə qalxdıqca ruhumuzda bir tərpəniş hiss etmişdik. Bu ucalıqda hərbçilərlə görüş ruhumuzun göyqurşağına dönmüşdü. Onda bu ucalıq bizə gözəl duyğular yaşatmışdı. Göy üzünün göylüyünə yayılmış bayrağımızı görüncə köksümüz ürəyimizə darlıq etmişdi. Bir qədər aralıda dalğalanan bayrağımız buradan o yana aparacaq mənzilimizi nurlandırmışdı. Baxışlarımız bayrağımıza sarılmışdı, Bayrağımız göy üzünə. Var səsimizlə "Ucal, bayrağım!" demişdik. "Sən qüdrətsən, qüdrətini yaşadan bu əsgərlərdən də güc al, bayrağım!" kəlmələrinin ülviyyətini göy üzünə bir ömür qədər yaxın olan ucalıqda əsgərlərlə nəfəsnəfəsə yaşamışdıq. Kəlmələr dağların o üzündə də eşidilmişdi...

Dağlarda tala-tala qar görünürdü. Payızın ilk ayında ağ talalar ağ yola bənzəyirdi. Ağ talalar dağların çiyinlərində ağ xurcun idi elə bil. Bir az əvvəl yağış yağmışdı. Belə yağışa Günlü yağış deyirlər - yağdığıyla kəsdiyi bir olur, həm də damlalar Günəşin nuruna bürünüb düşür. Belə yağışlara qoşa ovuc açmağa meyillənirsən. Yağış kəsincə göyqurşağı görünür. Uşaqlığımızda deyərdilər ki, kim göyqurşağının altından keçsə, niyyətləri yerinə yetir. Bu dağlar göyqurşağının altından keçməsə də, niyyətinə çatıb. İndi yolunu gözlədiklərinin əhatəsindədi, indi həsrətlilərinin nəfəsiylə isinir, indi qartalların kölgələndirdiyi torpaqda yad izi qalmayıb. Bundan sonra heç zaman yad izi olmayacaq!

Əsgərlər bir qədər aralıdan uçan qartalın uçuşunu maraqla izləmişdi. Komandirləri "Gəlişinizə görədi, doğmalığı qartal da duyur..." demişdi. Hamı bu ecazkar uçuşu təbiətin insanı bunca həssaslıqla duyması bilmişdi, buna tarixi Zəfərə görə tarixi uçuşların başlanğıcı demişdi. Onu da demişdi ki, Azərbaycan əsgərinin nəfəsiylə isinən dağlarda göy üzünü qartal qanadları sığallayır...

Diqqətimizi bir yazı çəkmişdi: Nail postu. İkinci Qarabağ müharibəsinə kimi "Mübariz" postu vardı, "Çingiz postu" vardı. Bu postlarda əsgərlərlə söhbətləşəndə soruşmuşdum ki, belə postlar yenə olacaqmı? Əsgərlər qətiyyətlə, inamla demişdilər ki, Ali Baş Komandanın əmri ilə torpaqlarımızın işğaldan qurtuluş döyüşlərindən sonra da belə adlanmalar ola bilər...

Bu ətraflarda heç bir yüksəkliyin adı yoxuydu. Hələ yoxuydu. Bu yüksəkliklər torpaqlarımızı işğaldan azad etmiş əsgərlərin davamçılarının nəfəsiylə isinirdi. "Bu yüksəkliklərə burada xidmət edəcək əsgərlərimiz ad verəcəklər", - düşünmüşdüm...

Öyrənmişdik ki, 2022-ci il sentyabrın 12-də döyüşçülərimiz nəzərdə tutulan mövqeyə düşmənin mövqeləri arasından dərinləyə sızmaqla yaxınlaşıblar. Gecənin köynəyi sökülər-sökülməz hücum əmri verilib.

Döyüşçülərimizin döyüş əmri verilə-cəyi anı gözlədikləri mövqe ilə bu yüksəkliyin arası xeyli yoldu, həm də enişli, yoxuşlu. Döyüş başlayandan dörd saat sonra döyüşçülərimiz burada olublar. Ermənilər zəif də olsa, müqavimət göstərə-göstərə uzaqlaşırdılar. Düşmənin sonuncu güllələrindən biri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nail Abbaslının böyründən dəyib. Şəhid oldu Nail. Döyüş yoldaşları açılan sabahı Nailsiz qarşılayıblar. Dan yeri sökülərdə bir lövhə hazırlayıblar: Nail postu. Bu lövhə döyüşçülərin şəhid döyüşçüyə, şəhid döyüşçünün timsalında Vətən müharibəsində qazanılan tarixi Zəfərə ehtiramıdı...

Baş leytenant Nicat Həsənovdan eşitdiklərim mənə də, o döyüşün iştirakçıları olmuş döyüşçülərə də bir gerçəkliyi yenidən yaşatmışdı: Ömür Vətən üçündü. Aylar, illər Vətənin adına ad olmayıbsa, ömür deyil. Ömür olmayan illərə görə yaşanılan acı təəssüf heç zaman sovuşmur. Vətən üçün yaşanılan illər gerçək tarix olur. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Nail Abbaslının 25 illik ömrü tarixin yaddaşında da yaşayacaq, yaddaşlarda da. Şəhidlərin ömrü ölməzlik işığıdı...

Baş leytenant demişdi ki, sentyabr döyüşlərinin başlamasına ermənilik səbəb olmuşdu, azərbaycançılıq qətiyyətiylə başa çatdırmışdı. Sonra əsgərlərə xitabən demişdi ki, siz başa çatdırdınız. Azərbaycanın ərazi bütövlüyünü də siz bərpa edəcəksiniz. Bu ucalıqda bu niyyətlə xidmət sizi tarixi bir günə yaxınlaşdıracaq. Sizi o müqəddəs döyüşlərə bu bayraq uğurlayacaq!". Əsgərlər zabitin kəlmələrini döyüş andı bilmişdilər...

Polkovnik-leytenant Azər Rzayev İkinci Qarabağ müharibəsini Azərbaycanın qürur dövrü adlandırmışdı. Bu adlanmada tarixi bir gerçəklik vardı. Bu gerçəklik dövlətçiliyin əsgəri olan ordunun gücünü ifadə edirdi, ordu ilə xalqın birliyinin fəlsəfəsini ifadə edirdi, azərbaycançılığın mahiyyətini ifadə edirdi. Bu adlanma həm də dünyanın nizamını qaytaran ədalətli müharibədə qazanılan tarixi Zəfərin həmayili olan adlanma idi. "Bu adlanma əsən yellərin qanadlarında çox uzaqlara çataсaq", - demişdim. Əsgərlərin baxışlarında bir qürur dikəlmişdi...

- Siz onların döyüş yolunu yeni qələbə ilə tamamladınız. Sizin davamçılarınız da olacaq. Siz torpaqlarımıza yad nəfəsi dəyməsinə imkan verməyəcəksiniz, sizdən sonra xidmət edəcək əsgərlər də imkan verməyəcəklər. Belə xidmət edəcəksiniz. Siz də "Vətən gözdü, biz kirpik, Gözümüzün keşiyini çəkirik!" deyəcəksiniz. Bu, Hərbi Andа, dövlətə, dövlətçiliyə sədaqətiniz olacaq...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani əsgərlərə sentyabr döyüşlərindən danışmışdı, qəhrəmanlıqlardan, qəhrəmanlardan danışmışdı. Əsgərlər bu ucalıqda Vətən ucalığını şeirlərin, misraların, bədii fikirlərin işığında yenidən yaşamışdılar.

...ağdı, Vətən,
Buludun yumşaqdı, Vətən.
Bu dağlar da deyir ki,
Hər oğul dağdı, Vətən!

Əsgərlər bu ucalıqda deyilən bayatının ovqatıyla qarşı dağlara, qarşı dağların o üzünə baxmışdılar. Bu niyyət - baxışların doğmalığını gözlərimə, gözlərimdən könlümə köçürmüşdü.

İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun tarixi qələbəsi ilə başa çatdı. Noyabrın 10-da imzalanan üçtərəfli Bəyanat Azərbaycanın qalibiyyət, Ermənistanın məğlubiyyət sənədi oldu. İşğal sonlansa da işğalçı Ermənistan niyyətini müxtəlif təxribatlarla davam etdirir, üçtərəfli razılaşmaya məhəl qoymadan, Rusiya sülhməramlılarının "nəzarətindən yayınmaqla" Kəlbəcərdə, Laçında təxribatlar törədirdi, hətta bu ərazilərdə 2021-ci ildə Ermənistanda istehsal edilmiş minalar da basdırırdı.

Polkovnik-leytenant Ruslan Əbilov demişdi:

- Düşmən sentyabrın 12-dən 13-nə keçən gecə təxribata başladı. Döyüş əmrini 2020-ci il sentyabrın 27-si ovqatıyla qarşıladıq. Təkcə biz yox, döyüşə cəlb olunan bütün bölmələr, bütün hərbi qulluqçular belə qarşıladılar.

Bir anlığa nəfəs dərib əsgərlərə baxmışdı:

- Zəfərin işığına kölgə salmaq istəyənlərin niyyətini sonlandıracaq döyüşlər Azərbaycan əsgərinin həm döyüş əzminin, həm də qələbə ruhunun mənəvi hazırlığının başlanğıcıydı. Ali Baş Komandanın döyüş əmri verdiyini eşidən şəxsi heyətin baxışlarına sarılan sevinci təsvvür etməyə çətinlik çəkirəm. Hamımız bu sevincin qələbə vəd etdiyini aydınlığıyla duyurduq. Döyüşə də bu ovqatla getdik. Qələbə qazananların sırasında biz də vardıq.

- Dünyanın ədalətli hərbi ekspertləri etiraf edirlər ki, heç yerdə, heç zaman Azərbaycanda başlayan ədalətli müharibə qədər gözlənilən, arzulanan müharibə olmayıb. Belə deyənlərin sırasında mən də varam. Həmin vaxtlarda Azərbaycanda hamı torpaqlarımızın işğaldan azad edilməsini arzulayırdı və hər kəs bu arzunun gerçəkləşməsi naminə döyüşlərə can atırdı. Bu arzu qələbə yolunu göstərən arzu idi. Bu müharibə xalqın arzuladığı müharibə idi, xalqın müharibəsiydi, - demişdim...

Döyüş ruhundan danışan baş çavuş Məhəmməd Şamanidze demişdi ki, mən Axıska türküyəm. Vətənin o başı, bu başı olmur. Babalarım Aspinzada yaşayıb, Fərqanəyə sürgün edilib, atam Fərqanədən qaçıb Azərbaycana sığınıb.

Məhəmməd başqa Axıska türkləri kimi İsgəndər Aznaurovun türkçülüyə, azərbaycançılığa sevgisini yaşadayaşada əsgərləşib. Məhəmmədin kəlmələri bu ucalıqda hələ yaşanılmamış gözəl bir könül xoşluğuna dönmüşdü. Qınayanım olmasaydı, burada yüksəkliyin sinəsindən boy göstərən daşlara da əsgər deyərdim...

Göy üzündə qanad çalan qartallar görünmüşdü. "Görəsən, neçə on günlər əvvəllərə kimi qartallar bu ucalığın göylərinə bu həvəslə qanad sərilmişmi? Gümanlarım demişdi ki, yox, ağı qaradan göylərin sultanı da ayırd edir. Həm də göy üzündən. Qartalların bu uçuşunu yüksəkliyi nəfəsiylə isidənlərə ehtiram uçuşuna yozmuşdum. Yozumum əsgərlərə xoş gəlmişdi...

Nicat Quliyev demişdi:

- İndi xatırlayıram ki, o qartalları ayın 15-də gördük. Bir qartal göründü, az sonra biri, bir az sonra daha biri. Aşağıdan uçuşurdular. Elə bil gələnləri yaxından görmək istəyirdilər.

- Qartalların o uçuşu göylərin sizə salamı olub, - demişdim.

Əsgərlərə göstərərək sözümü davam etdirmişdim:

- Niyəsi uca ruhların ruh qardaşı kimi bu ucalıqda döyüş növbətçiliyi aparan o əsgərin baxışındadı, o əsgərin duruşundadı, o əsgərin yerişindədi.

Sözümü bitirər-bitirməz uzaqlaşan qartallardan biri geri dönmüşdü. Elə bil dəniz səviyyəsindən 3000 metr yüksəklikdə göylərin duruluğu dolmuşdu ürəyimə...

- Bu ucalığa çatınca xeyli yol gəldik. Sizin döyüşə-döyüşə gəldiyiniz yol xeyli uzaqmış, - demişdim.

Əsgərlərin baxışları ucalığın sağından asılı qalmış cığırlara dikəlmişdi. Onları bu ucalığa bu cığırlar, bəzən ayaqlarının, bəzən dizlərinin açdığı izlər gətirmişdi. Payız sovuşacaq, yaz gələcək, o izlərdə də, o cığırlarda da otlar cücərəcək. Bizi gətirən yola bu mövqenin bel kəməri deyiləcək...

Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani mənim "Əsgər nəfəsi" kitabımdan söz açmışdı, əsgərlərə xitabən "Sizin kitabınızdı", - demişdi. "Bu ucalıq sizin nəfəsinizlə isinəcək, siz də "Əsgər nəfəsi"ylə isinin". Üzümə dikilən baxışların tünlüyündən minnətdarlıqla dəniz səviyyəsindən bunca ucalıqda belə təqdimə görə şair-publisist dostum Abdulla Qurbaniyə baxmışdım...

Yüksəkliyə çıxanda yol belə deyildimi? - həmin yoluydu. Gəlmişdik görüşmüşdük. Bu ucalıqda dalğalanan bayrağı görüncə sevincimiz kükrəmişdi. O kükrəyiş indi gözümüzün nurundaydı...

Mənə elə gəlmişdi ki, bu ucalıq bizə "Bu yerlərə bir də gəlin" deyir...

Yüksəklikdən enmişdik. Bir nəfəs dərimi vaxt ötüşməmiş eşitmişdik ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Cermuk yaşayış məntəqələri istiqamətindən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu və Zəylik yaşayış məntəqələri istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub. Azərbaycan Ordusunun hərbi qulluqçuları Rəşad Əmənullayev, Ruhid Rəhimzadə və Rəvan Cavadov yaralanmışdı. Hospitalda onlara baş çəkəndə bir daha əmin olmuşduq ki, bu yerlərdə bir də yad nəfəsi dolaşmayacaq...

Bu səhər Bayraq meydanında iki il əvvəlin gününü xatırlayıb, göyləri süsləyən bayrağımıza dedim ki,

Ruhumuzu bu ucalıq salamlayır,
Ucalığın əsgərindən güc al, bayrağım!
Uca ruhlar uğurlayır igidlərini,
Ucalığın əsgərindən güc al, bayrağım!

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan və Türkiyə qardaşlığının əbədi rəmzi



Qafqaz İslam Ordusu Bakını bolşevik-daşnak birləşmələrindən azad etdi. Xilaskar ordu Azərbaycan xalqına qarşı daşnak ideologiyası ilə silahlanmış Şaumyanın başçılıq etdiyi hərbi birləşmələrin həyata keçirdiyi soyqırımların dayandırılmasında və Azərbaycan Xalq Cümhuriyyətinin tarixində mühüm rol oynadı. Bakı azad edildikdən sonra Osmanlı Türkiyəsinin hərbi naziri Ənvər paşa Şərq Orduları qrupu komandanı Xəlil paşaya göndərdiyi şəxsi təbrik teleqramında yazırdı: "Bakı uğuru münasibətilə gözlərindən öpərək təbrik edirəm. Bakını xilas edən birliklər bir az dincəldikdən sonra Azərbaycanda həlelik bir diviziya saxlanaraq, qalanını 9-cu Orduya geri almaq fikrindəyəm...".

Bakı artıq Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının nəzarətində idi və burada qayda-qanun yaratmaq üçün bütün vasitələrdən istifadə olunurdu. Nazirlər Şurası Bakıya köçdükdən dərhal sonra baş nazir Fətəli xan Xoyski 20 sentyabr 1918-ci ildə əhaliyə müraciət edərək bildirirdi: "Artıq Bakıda yerləşən Azərbaycan hökuməti bununla şəhər və ətrafında yaşayan bütün əhaliyə, din və milliyyət fərqi qoyulmadan əmr edir: Azərbaycan hökumətinin tabeliyi altında yaşayan heç bir millətə fərq qoyulmadan qarətçilikləri, qatilləri və asayişi pozanları, edam cəzası da daxil olmaqla, böyük cəzalar gözləyir. Bütün xalq bunu bilməlidir ki, Türk millətinin qəhrəman və fateh əsgərlərinə əmr verilmişdir ki, cinayətlə, qarət və soyğunluqla məşğul olanları harada görsələr, güllələsinlər. Azərbaycan hökumətinin paytaxtında günahsız insanların haqq və hüquqlarına təcavüz edilməsi onun şan və şərəfinə yaraşmaz".

Şərq Orduları Qrupu komandanlığının 7 iyul 1918-ci ildə İstanbula göndərdiyi raportda 4-cü korpusun Təbrizi ələ keçirdiyi, ardınca Urmiya və Culfa-Naxçıvan bölgəsindəki ermənilərə qarşı daxili xətt manevri tətbiq ediləcəyi bildirilirdi. Həmişə olduğu kimi, o dövrdə də həm Cənubi, həm də Şimali Azərbaycanın bir erməni problemi vardı. Türk ordusundan qaçaraq ermənilərin hərbi lideri kimi çıxış edən Andranik qarşısına çıxan türkləri amansızcasına qətlə yetirirdi. Şərqi Anadoluda Cənubi və Şimali Azərbaycanda qətliamların arası kəsilmirdi. Belə bir vaxtda Cənubi Azərbaycandakı Xoy şəhəri ətrafında qərar tutan Andranik 6 minlik qoşunla türklərin 12-ci piyada diviziyasına qarşı hücuma keçdi. Lakin ağır bir məğlubiyyətlə geri çəkilərək, 22 iyun 1918-ci ildə Culfa və Naxçıvanda Ordubad ətrafındakı qəsəbə və kəndləri qarət edərək, əhalisini qətlə yetirdi. Vəziyyəti belə görən türk hərbi hissələri 20 iyul 1918-ci ildə xilaskar ordunu Naxçıvana yeritdi. Andranikin qüvvələri bu dəfə Qarabağa doğru qaçmağa başladı. Qarabağda vəziyyət daha mürəkkəb idi. Əvvəlcə Qarabağdakı azərbaycanlılar və ermənilər ortaq bir komitə yaradaraq, hakimiyyəti əllərinə alsalar da, tezliklə erməni xisləti özünü göstərdi. Ermənilərdən ibarət Milli Komitə Şuşada qurultay çağıraraq bu qurumun ləğv edildiyini, 7 nəfərlik bir icra heyətinin seçildiyini və Qarabağ hökumətinin qurulduğunu elan etdi. Onlar təzyiq və hədə-qorxu ilə türklərin bu erməni hökumətini tanımasını təmin etməyə çalışsalar da, Qarabağ azərbaycanlıları bunu qəbul etmədilər. Şuşanın yerli əhalisi silahlanaraq, ermənilərə qarşı əks tədbirlər görməyə başladılar. Elə bu vaxt Naxçıvandan qaçmaq məcburiyyətində qalan Andranik Qarabağa doğru irəliləməkdə idi. Onun əsas məqsədi Qarabağı azərbaycanlılardan tamamilə təmizləmək olub. Hadisələri diqqətlə izləyən Nuru paşa Bakı azad edildikdən sonra dərhal Qarabağ bölgəsində əməliyyatlara başladı. Bu məqsədlə Bakı Qarnizonunun komandanı polkovnik Cəmil Cahid bəy yeni yaradılan 1-ci Azərbaycan diviziyasına rəhbər təyin olundu. Bu diviziyanın əsasını 106-cı piyada alayı ilə 9-cu Qafqaz alayı təşkil edirdi. Azərbaycanlılardan ibarət 1700 nəfərlik 1-ci və 2-ci Azərbaycan alayları və 280 nəfərlik Azərbaycan süvari alayı da yeni diviziyanın sərəncamında idi. Ağdama gələn Cəmil Cahid bəyin qarşısında Şuşa və Gorusun azad olunması və Qarabağ bölgəsində asayişin təmin olunması vəzifəsi dururdu.

Cəmil Cahid bəyin silahları yerə qoyaraq Azərbaycan dövlətinə tabe olmaq tələbinə görə "erməni milli şurası" beş nəfərlik heyəti oktyabrın 1-də Ağdama göndərdi. Həmin heyət təmsil etdikləri erməni əhalisinin Azərbaycanın tərkibində qalmaq istəmədiklərini bildirdi. Türk hərbi qüvvələri oktyabrın 7-də əməliyyatlara başladı. Əsgəran azad olunduqdan sonra hərbi birləşmələrimiz sürətlə Şuşaya yaxınlaşdılar. Türk ordusu ilə qarşılaşmağa cürət etməyən Andranik Cənuba doğru geri çəkilməyə məcbur edildi. Cəmil Cahid bəy Qarabağın tanınmış bəylərindən olan Sultan bəyin komandanlığı altında mühafizə dəstəsini Andranikin hərbi qüvvələrinə qarşı göndərdi. Həmin dəstələr Andranikin qüvvələrinə qarşı Qaladərə deyilən ərazidən hücuma keçdilər və onları darmadağın edərək, Gorus istiqamətində qovdular. Şuşa qalasının camaatı türk ordusunu hərarətlə qarşıladı. Şəhərin strateji əhəmiyyətli ərazilərinə və məhəllələrinə türk əsgərləri yerləşdirilərək asayiş təmin edildi.



Bakıya daxil olan türk ordusunun komandanları Nuru paşa və başqaları mesenat Hacı Zeynalabdin Tağıyevin dəvətini qəbul edərək onun evində yerləşdilər. Tağıyev şəxsən öz evini vəd etdiyi kimi türk qoşunları komandanlığının istifadəsinə verdi. Bu da əbədi qardaşlığın və dostluğun bariz nümunəsi idi. Azərbaycan Xalq Cümhuriyyəti dövrünün ən böyük qələbəsi Bakının erməni bolşevik-daşnak qüvvələrindən azad edilməsidir.

Bu qələbənin böyüklüyünü və əhəmiyyətini isə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Fətəli xan Xoyski çox gözəl ifadə etmişdir: "Cəsur türk əsgərlərinin Azərbaycanın başkəndi olan Bakının düşməndən təmizlənməsi münasibətilə millətimin adından dünyanın ən cəsur və soylu əsgəri olan türkün oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm. Millət sizə minnətdardır".

Sovet dövründə ağır şərtlər altında yaşamasına baxmayaraq, xalqımız türk əsgərlərinin məzarlarını qoruyub saxladı, dağılmağa qoymadı, ətrafına çiçəklər, ağaclar əkdi, yaşıllığa qərq edib onları ziyarətgaha çevirdi. Xalqımız Bakıda, Şamaxıda, Neftçalada, Salyanda və digər rayonlarımızda olan türk şəhid məzarlarını özününkü kimi qorudu. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra isə Qafqaz İslam Ordusu haqqında çoxlu sayda elmi əsərlər yazıldı. Nəhayət, Ulu Öndər Heydər Əliyevin böyük təşəbbüsü və tarixi qərarı ilə bu qardaşlıq abidəyə çevrildi. 1918-ci ilin martında soyqırımı qurbanlarının, 1990-cı il 20 Yanvar və Ermənistanın təcavüzünə qarşı ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan mübarizələrdə, savaşlarda canından keçən şəhidlərimizin ruhu dolaşdığı məkanda - müqəddəs Şəhidlər xiyabanında Qafqaz İslam Ordusuna möhtəşəm bir abidə - Bakı Türk Şəhidliyi abidəsi ucaldıldı. Bu insanların təkcə ziyarət edərək əklil qoyduqları bir abidə deyil, qanı bir-birinə qovuşmuş Azərbaycan və Türkiyə qardaşlığının və əbədi birliyinin rəmzidir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Qarabağımızda əsgərlərin ayaq səsləri eşidilir

*Zabit Hümbət Cəfərovla işğaldan azad olunmuş ərazilərimizdə görüşdük. Şəxsi heyətin günün nizam qaydalarına uyğun dərs yerində olduğunu bildirdi. Sıra meydanında "sıra hazırlığı" məşğələsi keçən əsgərlərlə söhbətləşdik.*



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Hüseyn Hüseynov komandiri olduğu manqanın şəxsi heyətinə sıra hazırlığı məşğələsindən "sırada addımlama", "rəisə yaxınlaşma", sağa-sola dönmələr və başqa hərəkətləri öyrədirdi. Əsgərin intizamı sıradan başladığı kimi, döyüş hazırlığı da sıradan başlayır. Zabit sıra hərəkətlərini mükəmməl bilməyən əsgərin döyüş hazırlığının da yetərincə olmayacağını əminliklə bildirdi.

Məşğələ rəhbəri Hüseyn iki ildir ki, hərbi xidmətdədir. Onun ən böyük arzusu hərbçi olmaq olub. Bu gün arzu etdiyi peşəyə yiyələndiyi üçün sevincli və qürurludur. Əsgərlərə sıra məşqlərini böyük həvəslə öyrədir. O dedi: - Əsgər üçün hərbi intizam ən vacib amildir. Çalışıram ki, onlara sıra hazırlığının bütün elementlərini düzgün öyrədim. Bunun üçün nizamnaməyə əsaslanıb silahsız sıra hərəkətlərini öyrədirəm.

Əsgərlərdən Səid Məmmədov, Həsrətəli Quliyev, Elcan Hacıyev, Renat Balabəyov, Rəvan Qurbanov, Elmir Xanbalayev və başqaları sıra hərəkətlərini dərindən öyrənməyə çalışırlar. Əsgər Rəvan Qurbanov Bakı şəhəri Xətai rayonundan ordu sıralarına çağırılıb. O, keçirilən bütün məşğələlərdə mövzuları dərindən mənimsəməyə çalışır və digər əsgər yoldaşlarına örnək olur. Rəvan dedi: - Hərbi xidmətə gələn ilk gündən qarşıma məqsəd qoydum ki, nümunəvi xidmət edim, komandirlərimin öyrətdiyi bütün bilikləri dərindən mənimsəyim. Çalışacağam ki, bundan sonra daha yaxşı xidmət edim. Sıra hazırlığı məşqləri bizim üçün vacibdir. Bu səbəbdən mən də, silahdaşlarım da sıra hazırlığını ciddi şəkildə öyrənməyə səy göstəririk.

Sıra meydanında əsgərin böyük ruh yüksəkliyi ilə sıra məşqlərini öyrənməyinin şahidi olduq. İnanıram ki, doğma Qarabağımızda sıra hərəkətlərini öyrənməyin sevinci, qüruru tam başqadır.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Vətəni qorumaq şərəfdir. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi

**Suallar:**

**1. Vətəni qorumaq şərəfdir.**

**2. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi.**

### Vətəni qorumaq şərəfdir

Vətən ancaq üzərində gəzdiyimiz, yaşadığımız torpaq parçası deyil. Özünün bayrağı, müstəqilliyi, suverenliyi, milli dövlət himni, sərhədləri olan torpağa Vətən deyilir. Vətən azadlıqdır. Torpağın Vətən olması üçün düşmənlərlə mübarizə aparmaq, onun üzərində zəfər qazanmaq lazımdır. Vətən xalqın qorunması üçün vacib müqəddəs dəyərlərindən biridir. Xalq yalnız öz Vətənini qorumaqla gələcəyinə təminat verə bilər. Vətənə olan sevgimiz bizi ucaldır. Vətənin müdafiəsi bizim üçün inanc, iman olmalıdır.

Torpağı Vətən edən xalqın onda yaşadığı tarix, onunla qurduğu mədəniyyət əlaqələridir. Vətən xalqın doğulduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirdiyi yerdir. Vətən xalqın evi, xalq da Vətəndə yaşayan ailədir. Vətən bizi qoruyan anadır. Çünki biz onun sayəsində inkişaf edir və yetkinləşirik. Vətən həyata havasını tənəffüslə başladığımız yerdir. Vətən gözümüzün dünyada ilk gördüyümüz torpaqdır. Vətən atalarımızın qəbiristanlığı, övladlarımızın dünyaya gəldiyi yerdir. Vətəni sevmək sadəcə torpağı sevmək deyil, Vətənin daşını, havasını, suyunu sevmək deməkdir.

Vətənə bağlılıq onu sevmək, qorumaq və inkişaf etdirməkdir. Çünki nə Vətənsiz bir xalq, nə də xalqsız Vətən ola bilər. Vətən əldən gedərsə, o xalqın hər cür milli-mənəvi dəyərləri də yox olub gedər. Vətəni qorumaq dövlət və xalqı qorumaq, vətəni sevmək də dövlət və xalqı sevməkdir. Vətənə bağlılıq milli-mənəvi dəyərlərə, ailəyə, bayrağa, dilə, tarixə, adət-ənənəyə, dinə, sənətə, milli birlik və bərabərliyə bağlılıqdır. Vətəni sevmək, onu düşmənlərdən qorumaqdır, hər cür hücum ehtimalına qarşı tədbirli olmaqdır və lazım olduğu zaman onun üçün canını verməkdir. Milli-mənəvi dəyərlərini, haqqı-həqiqəti, namusu, şan-şərəfi sevən bir insan Vətənini də mütləq sevməlidir. Çünki bunlar Vətənsiz yaşaya bilməz.

Vətənimiz Azərbaycana hücum varlığımıza, birlik-bərabərliyimizə, azadlığımıza edilən hücumdur. Buna görə Vətənimiz Azərbaycanın düşmənlərinə qarşı ayıq-sayıq olmaq, onlarla mübarizə etmək ən böyük və ümdə vəzifəmizdir. Bu vəzifəni yerinə yetirərkən ölmək həyatdan şərəflə ayrılmaq, şəhid olmaqdır, yaralanmaq isə şərəflə dönməkdir. Vətənimiz Azərbaycanı sevmək, təhlükə anında Vətənimizin imdadına yetişmək, lazım olduğunda canını sevə-sevə verə bilməkdir. Sülh zamanında onun abadlığına çalışmaq, maddi-mənəvi inkişafını və yüksəlməsini hədəf və məqsəd seçməkdir. Xeyirli olan işləri yaymaq, vətəndaşlara kömək etmək, Vətənin səadəti üçün səy göstərmək, onun möhkəmliyini və əmin-amanlığını təmin etməyə çalışmaqdır.

Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan gözəl Azərbaycanımızı, onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə hər an hazır olmalıyıq. Çünki Azərbaycan, hər nə bahasına olursa olsun, müdafiə etmək məcburiyyətində olduğumuz, şəhidlərimizin uğrunda can verib, qanlarıyla suladığı, mənəviyyatı, dili, bayrağı, mədəniyyəti və əxlaqı bir olan xalqın üzərində yaşadığı torpaq parçasıdır. Vətənimiz Azərbaycanı müdafiə etmək insanın sinəsində doğulub boya-başa çatdığı, suyu və çörəyi ilə bəsləndiyi, havasını tənəffüs etdiyi, mənəviyyatına, xalqına, ismət və namusuna, haqlarına hücum edildiyi zaman malını, canını və hər şeyini fəda etməkdən çəkinməməkdir.

Azərbaycan strateji cəhətdən əlverişli mövqedə yerləşməklə yanaşı, iri həcmdə təbii sərvətlər ehtiyatına sahibdir. Buna görə, ölkəmizi ələ keçirməyə çalışan qüvvələr həmişə fürsət axtarırlar. Tarixin ayrı-ayrı dönəmlərində Azərbaycan həmişə yadellilərin hücumlarına məruz qalıb. Lakin torpaqlarının müdafiəsini hər şeydən üstün tutan atalarımız Vətənimiz Azərbaycanı canları bahasına qoruyub bizə əmanət ediblər. Verilən vədə əməl etmək lazımdır, bu bizim dinimiz, inancımız, insanlığımız gərəyi üzərimizə yüklədiyimiz ən ali və müqəddəs vəzifə olmalıdır. Çünki min illərdir hakimiyyətimizi davam etdirdiyimiz bu torpaqları gələcəyə aparmaq lazımdır, onu başqa xalqların əsarəti altına atmaq insanlığa sığmaz. Heç bir halda Vətənin müdafiəsindən geri çəkilməməliyik, ən çətin anlarda belə bayrağımızı yüksəkliklərə qaldırmalı, ölkəmizin adının ən yaxşıları sırasında çəkilməsi naminə ən ağır şəraitlərdə belə çalışmaqdan geri durmamalıyıq. Hər birimiz Vətənimiz Azərbaycanın könüllü əsgərləriyik. Biz Vətənimiz Azərbaycana xidmət borcunu bu torpağa olan mənəvi borc kimi verməliyik. Biz həyatımızın sonuna kimi Vətənimiz Azərbaycana borcluyuq. Azərbaycan bizim qürur yerimizdir. Öz Vətənini düşünən hər bir insan üçün vətənpərvərlik bir ideologiya olmalıdır.

Əcdadlarımızın mirasına sahib çıxaraq 44 günlük Vətən müharibəsində bütün dünyaya birliyimizi, Vətənimiz Azərbaycana olan sevgimizi göstərdik. Vətən sevgisindən mayalanmış igidliklə region üçün təhlükə mənbəyi olan mövcud olmuş Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi cahana Azərbaycan adlı məmləkəti daha yaxşı tanıtdı.

Ulu Öndər Heydər Əliyev deyirdi: "...Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik...". Bəli, Azərbaycanın gələcək varlığı naminə nəinki gənclər, hər birimiz vətənpərvər olmalıyıq. Çünki borcumuzun olduğu bu Vətəni qorumaq bizim ən ümdə amalımızdır.

### Vətən müharibəsinin qəhrəmanlıq salnaməsi

Azərbaycan türkü olaraq biz əsrlərlə ermənilərin təcavüzünə məruz qalmışıq. XX əsrin sonlarında, bir zamanlar ermənilərin yaşaması üçün köçürüldükləri Azərbaycan torpağı olan Qarabağa sahib olmaq üçün bu mənfurlar ölkəmizə qarşı hərbi təcavüzə başlamış, etnik təmizləmə siyasəti apararaq soyqırımlar törətmiş, minlərlə dinc əhalini qətlə yetirmiş, bir milyondan artıq azərbaycanlını öz doğma yurd-yuvasından didərgin salmışdılar. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır.

2016-cı ilin əvvəlində Ermənistan hərbi təxribata əl ataraq, aprelin 1-dən 2-sinə keçən gecə qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerlərini ağır silahlardan atəşə tutdu. Azərbaycan Ordusunun əks-həmləsi nəticəsində düşmənə layiqli cavab verilərək, işğal altında olan ərazilərimizin müəyyən hissəsi işğaldan azad edildi. Bu döyüşlərdə igid övladlarımızın göstərdikləri qəhrəmanlıqlar və şücaətlər Azərbaycan xalqının heç vaxt erməni işğalı ilə barışmayacağını göstərdi.

2020-ci ilin iyulunda dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş verən silahlı toqquşma ölkəmizin taleyində ciddi dönüş nöqtəsi oldu. Vətən sevgisi döyüş meydanında generalı əsgərdən ayırmadı. "Qaraqaya"da şəhid olan general-mayor Polad Həşimovun cəsarəti, vətənpərvərliyi, qorxmazlığı və ən nəhayət, düşmənə sonsuz nifrəti 27 sentyabrda başlanacaq Vətən müharibəsinin qəhrəmanlıq simvoluna çevrildi. Onun vəzifə borcunu qəhrəmanlıqla yerinə yetirərək şəhadətə qovuşması Azərbaycan Ordusunun Vətən müharibəsində rəşadət göstərməsinə gətirib çıxardı.

2020-ci ilin iyul, avqust və sentyabr aylarında ardıcıl baş verən təxribatlar nəticəsində atəşkəs yenidən pozuldu, mülki əhaliyə erməni kəşfiyyat-diversiya qrupları tərəfindən hücumlar edildi. 2020-ci ilin 27 sentyabrında Azərbaycanın şəhər və kəndlərinin ağır artilleriyadan atəşə tutulması və ermənilərin mövqelərimizə hücuma keçməsi Azərbaycan Ordusunun Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında əks-hücum əməliyyatına başlamasına səbəb oldu. Ölümdən zərrə qədər qorxmayaraq Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini geri qaytarmaq üçün canlarını heçə saymağa belə razı olduqlarını göstərən bu yurdun minlərlə igid övladı, Xocalı soyqırımı qurbanlarının, mənfur düşməni belə tanımayan Zəhranın, Aysunun, Mədinənin və neçə belə körpənin intiqamının alınması üçün könüllü cəbhəyə yollandı. 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Qarabağda keçirilən antiterror əməliyyatı erməni silahlı qüvvələri və Qarabağda formalaşan terror qruplaşmalarının darmadağın edilməsi və Azərbaycanın parlaq qələbəsi ilə başa çatdı, torpaqlarımız igid əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi. Xüsusi təyinatlılarımz öz yaralılarını və şəhidlərini döyüş meydanında buraxmayaraq qayalardan dırmaşaraq Şuşada möhkəmlənmiş üç mindən çox erməni elit hərbi hissələrinin canlı qüvvəsini, döyüş texnikalarını qoyaraq qaçmağa məcbur etdi. Təbii coğrafi istehkam olan Şuşanın bir neçə gün ərzində az itkilərlə və şəhərə böyük zərər vurmadan atıcı silahlarla azad edilməsi dünya tarixində görünməmiş döyüş nümunələrindən biridir. Şuşanın düşmən əsarətindən qurtarılması Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını döyüşsüz Azərbaycana qaytarmağa məcbur etdi. Qəhrəman Azərbaycan əsgərləri kiçik qüvvə ilə Zəngilanı azad etdi, Cəbrayılda erməni zabitləri Azərbaycan Ordusunun mübarizə əzminin qarşısında aciz qalaraq öz əsgərlərinə döyüşməyin mənasız olduğunu deyərək qaçmışdılar. Hadrutda 30 nəfərlik xüsusi təyinatlı dəstəmiz 1500 nəfər erməni muzdlusunu qaçmağa məcbur etmişdi.

Biz Vətən müharibəsində oğullarımızın qəhrəman ruhunu gördük. Onların qəhrəmanlıqları dillərə dastan oldu, silinməz mürəkkəblə tarixə yazıldı. Çiynində yaralı əsgəri daşıya-daşıya, qar-boran demədən sadəcə irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən torpağı - Qarabağda axıdan bu igidlər öz şücaəti, dönməzliyi, müzəffərliyi ilə bizə bu qələbəni yaşatdı. Məhz onlar Əlif Hacıyev, Albert Aqarunov, Çingiz Mustafayev, Mübariz İbrahimov, Fərid Əhmədov, Polad Həşimov, İlqar Mirzəyev, Şükür Həmidov, Çingiz Qurbanov, Ramiz Cəfərov, Orxan Əkbərov, Anar Əliyev, Amid Heydərov, Vüqar Ağayev, Cəbrayıl Dövlətzadə Mübarizin, Fəridin ölmədiyini, bizim ordumuzda neçə Mübarizlərin, Fəridlərin olduğunu bütün dünyaya sübut etdilər. Məhz onlar kimi minlərlə igid bir əlində silah, bir əlində bayraq sinəsini düşmənə sipər edərək, Azərbaycanımıza - Qarabağımıza nəfəs verdilər. Onlara bu dərəcədə böyük cəsarəti, qorxmazlığı verən Vətən eşqi olub. Onlar bizim birlik nişanəmiz, Vətən sevdamız, azadlığımız, qələbəmizdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi kimi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi Vətən uğrunda canından keçməyə hazır olan qəhrəmanlarımız var!".

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin 83 nəfər hərbi qulluqçusuna (onlardan 39 nəfər ölümündən sonra) Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş hərbi qulluqçularımıza, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 27 sentyabr - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında "Anım Günü" kimi qeyd olunması ilə bağlı Sərəncam imzalamışdır. Bu addım şəhid ruhlarına, şəhidlərin doğmalarına ali ehtiramın göstəricisidir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan Ordusunu yaratdı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev isə onu dünyanın ən güclüləri sırasına çıxardı. Bu ordu qarşısında duran tarixi missiyanın, yaradıcısı olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin arzusunu və vəsiyyətini yerinə yetirdi. Odur ki, bu gün Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ruhu rahatdır və bu qələbə həm də Ulu Öndərin ideyalarının təntənəsidir. Azərbaycan xalqı zəfər çalaraq şanlı qəhrəmanlıq salnaməsi yazdı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Göygöl rayonunda "Əsgərə məktub" layihəsi keçirildi




Xalq ilə ordunun birliyi həmişə tarixi əhəmiyyət kəsb edib, yenilməz olub. Bu möhtəşəm birlik Vətən müharibəsində bir daha təsdiqləndi. Bir yumruq olan xalq-dövlət-ordu birliyi tarixi Zəfərin qazanılmasında müstəsna rol oynadı.

Bütün bunlar barədə Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin Göygöl rayon İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi "Əsgərə məktub" layihəsində iştirak edən rayon ictimaiyyətinin nümayəndələri, gənclər, yeniyetmələr, hakimiyyət orqanlarının nümayəndələri ətraflı danışdılar.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətənimizin ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Mərkəzin əməkdaşı Şəhla Abduləliyeva "Əsgərə məktub" layihəsi haqqında ətraflı məlumat verdi. Bildirdi ki, bu layihə ölkəmizin rayon və şəhərlərində mütəmadi keçirilir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Ordu ilə xalqın əlaqələrinin möhkəmləndirilməsinə, vətənpərvərlik ruhunun daha da yüksəldilməsinə xidmət edir. Bir neçə ildir yaranan bu ənənə uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandanımızın sərkərdəliyi ilə ordumuzun əsgər və zabitləri döyüşlərdə böyük igidliklər göstərərək, torpaqlarımızı işğaldan azad etdilər. Tarixi qələbədən sonra yeni dövrə qədəm qoyan şanlı ordumuzun döyüş qabiliyyətinin daha da yüksəldilməsi, peşəkarlığının artırılması istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. Ordumuz müasir texnikalarla, silah-sursatla, elmin, texnikanın son nailiyyətləri olan döyüş vasitələri ilə təchiz olunur. Ölkəmizin ərazi bütövlüyünü, suverenliyini təmin edən şanlı ordumuz ona göstərilən böyük etimadı həmişə doğruldacaq, Vətənimizi daim göz bəbəyi kimi qoruyacaq.




Sonra gənclər və Vətən müharibəsi iştirakçıları adından çıxış edənlər də Azərbaycan hərbçilərinin göstərdikləri rəşadətlərdən, Vətən, torpaq sevgisindən danışdılar. Gənclər Vətənə sədaqətlə xidmət edəcəklərini, Zəfər tarixini yazanların davamçıları olacaqlarını bildirdilər.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, bütün sahələri əhatə edən inkişaf strategiyasını Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev uğurla inkişaf etdirərək, ölkəmizin dünya miqyasında artan nüfuzundan beynəlxalq tədbirlərə ev sahibliyi etməsindən ətraflı məlumat verdilər. Qürur hissi ilə bildirdilər ki, ölkəmiz dünya miqyaslı tədbirlərin keçirildiyi məkana çevrilib.

Sonra ictimaiyyət nümayəndələri, yeniyetmələr, gənclər Azərbaycan əsgərinə inam, etibar, qürur hissi dolu məktublar ünvanladılar. Mərkəzin əməkdaşları tədbirin iştirakçılarına minnətdarlıqlarını bildirdilər.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

*Maraq dünyamız*

## Tədqiqatçılar Türkiyədə tapılan daş sütundakı işarələri deşifrə ediblər



Türkiyədə "Göbekli Tepe" arxeoloji sahəsində tapılan və təxminən 12400 il əvvələ aid olan daş sütunun üzərindəki işarələr bu yaxınlarda tədqiqatçılar tərəfindən deşifrə edilib.

Arxeoloqlar onların dünyanın ən qədim günəş təqvimini təmsil edə biləcəyini ehtimal edirlər. Alimlərin fikrincə, bu işarələr insan sivilizasiyasında əhəmiyyətli dəyişikliklərə səbəb olan nəhəng kometa təsirini sənədləşdirə bilər. Müvafiq araşdırma bu yaxınlarda "Time and Mind" jurnalında dərc olunub.

"Göbekli Tepe" bu gün elm adamlarına məlum olan ən qədim monumental memarlıq nümunəsi hesab olunur. O, Giza Böyük Piramidasından yeddi min il daha qədimdir, içərisində mürəkkəb oymalar var ki, arxeoloqların fikrincə, onlar "Tauida" meteor yağışını qeyd edən işarələr ehtiva edir. Bu, Yer kürəsində 1200 illik Buz dövründə - eramızdan əvvəl 10850-ci illərdə kometa fraqmentlərinin iyirmi günlük yağışı hadisəsidir. Güman edilir ki, həmin kometa zərbəsi bir çox iri heyvan növlərini məhv edib, ola bilsin ki, yeni bir din yaradıb, insanların daha sərt şəraitdə yaşaması fonunda kənd təsərrüfatının inkişafına təkan verib və Qərbi Asiyada sivilizasiyanın inkişafına səbəb olub.

Edinburq Universitetinin tədqiqat qrupunun aparıcı müəllifi Martin Svitman arxeoloji məkandakı sütunda olan "V" şəkilli oyma seriyalarının hər birinin bir günü göstərdiyini, 365 işarənin isə birlikdə on iki aydan ibarət günəş təqvimini təşkil etdiyini bildirib. Svitmana görə, boğazında "V" hərfi olan quşa bənzəyən məxluq yay gündönümünü təmsil edir; o zamanlar quşun yay gündönümü bürcünü təmsil etdiyinə inanılırdı. Sütunun yanından hər birinin boynunda "V" işarəsi olan başqa varlıqların, ola bilsin ki, tanrıların heykəlləri olduğu ehtimal edilir. Həm günəş, həm də ay dövrlərini təsvir edən oymalar dünyanın ən qədim Ay-Günəş təqvimini təşkil edə bilər ki, bu, digər oxşar təqvimlərdən minlərlə il əvvələ aiddir. "Tauida" meteor yağışının ayrı bir sütun üzərində həkk olunduğu görünür.




Svitman, həmçinin oymaların yazılı ünsiyyəti nəzərdə tutduğu versiyasını irəli sürüb. O deyib: "Görünür ki, "Göbekli Tepe" əhalisinin yaşayış yeri kometa zərbəsi nəticəsində məhv edildiyi üçün onlar səmanı diqqətlə izləyiblər. Bu hadisə sivilizasiyanın yaranmasına təkan verib, yeni bir dinin yaranmasına səbəb olub və soyuq iqlimə uyğunlaşmaq üçün kənd təsərrüfatının inkişafına şərait yaradıb. Ola bilsin ki, onların gördüklərini qələmə almaq cəhdləri min illər sonra yazılı mədəniyyətin inkişafı yolunda atılan ilk addımlar olub".

"Göbekli Tepe" Türkiyənin Cənub-Şərqi Anadolu bölgəsində yerləşən məbəd kompleksidir. O, dəyirmi formalı, sütunlu bir quruluşdur. Alimlər hesab edirlər ki, onların tikintisi Mezolit dövründə başlayıb və bir neçə minilliklər boyu davam edib. Bəzi sütunların səthi relyeflərlə örtülüb. Uzun müddət kompleks eyniadlı təpənin altında qalıb. 1990-cı illərdən etibarən burada fəal şəkildə arxeoloji qazıntılar aparılır.

**"Azərbaycan Ordusu"**

# *Xəbərlər: hadisələr, faktlar*

### Rusiya Hərbi Dəniz Qüvvələri Xəzərdə və digər sularda təlimlərə başlayıb



Rusiya Hərbi Dəniz Qüvvələri (HDQ) Sakit və Şimal Buzlu okeanlarda, Aralıq, Xəzər və Baltik dənizlərində planlaşdırılan "Okean-2024" strateji təlimlərinə başlayıb.

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Təlimlərdə 400-dən çox döyüş gəmisi, sualtı qayıq və təchizat gəmisi iştirak edəcək. Təlimlərin təşkilində məqsəd HDQ-nin yüksək dəqiqlikli silahlar və silahların perspektivli nümunələrinin kompleks tətbiqinə hazırlığın yoxlanmasıdır. Təlimin birinci mərhələsində qüvvə qruplarının təyin edilmiş döyüş hazırlığı ərazilərində yerləşdirilməsi məsələləri işlənəcək, ikinci mərhələdə strateji hədəflərin və şərti düşmənin qüvvələrinin məhv edilməsi, desant göndərilməsi və dəniz iqtisadi fəaliyyət obyektlərinin qorunmasına dair təlimlər nəzərdə tutulub.

Müdafiə Nazirliyindən, həmçinin bildiriblər ki, Rusiyanın xarici tərəfdaş dövlətləri də "Okean-2024" təlimlərində iştirak etmək üçün dəvət olunublar.



### "Sea Breeze" beynəlxalq hərbi təlimlərinə start verilib

Qara dənizin Bolqarıstan sahillərində "Sea Breeze" beynəlxalq hərbi təlimləri başlayıb. Təlimlərdə Ukrayna və Yaponiyanın da daxil olduğu 13 ölkədən nümayəndələr iştirak edirlər.

Təlimlər sentyabrın 20-dək davam edəcək, üzən və dəniz dibi minalarına qarşı taktiki hərəkətlərin, üsulların işlənməsi əməkdaşlığına yönələcək. Bolqarıstan donanmasının komandanı kontr-admiral Kiril Mixaylov qeyd edib ki, təlimlərin əsas məqsədi ölkələr arasında qarşılıqlı əlaqəni möhkəmləndirmək və minaların aşkar edilməsi, neytrallaşdırılması üzrə müxtəlif taktikalardan istifadəni öyrənməkdir. ABŞ donanmasının vitse-admiralı Tomas İşi əlavə edib ki, Qara dənizdə artıq 105 dəniz minası aşkarlanıb ki, bu da ən azı beş gəmini zədələyib. O, təlimlərin ölkələrin birgə işləmə qabiliyyətini artırmağa və minalara qarşı səmərəli mübarizə üsullarının tətbiqinə kömək edəcəyini vurğulayıb.

Həmçinin ABŞ-ın suyun monitorinqi üçün peyklərdən istifadə etdiyi, lakin minaların və digər obyektlərin aşkarlanmasının əlavə identifikasiya tələb etdiyi qeyd olunub. Bildirilib ki, 2023-cü ilin sentyabrında Türkiyə, Rumıniya və Bolqarıstan arasında minalara qarşı birgə hərbi dəniz qrupunun yaradılması üzrə işlərə başlanılıb. Qrupun əsas məqsədi Qara dənizi minalardan təmizləməkdir.

Sentyabrın sonunda minalara qarşı qrupun aktivləşdirilməsi planlaşdırılır, bu qrup Türkiyədə hərbi təlimlərdə, noyabr ayında isə Rumıniyanın Konstansa şəhərində "Poseidon" təlimlərində iştirak edəcək.

### "Yonhap": Şimali Koreya ballistik raket buraxıb



Şimali Koreya sentyabrın 12-də səhər saatlarında Yapon dənizi istiqamətində ballistik raket buraxıb.

"Yonhap" agentliyi məlumat yayıb. Raketin uçuş detalları açıqlanmayıb.

Yaponiyanın özünümüdafiə qüvvələri raketin dənizdə Yaponiyanın məxsusi iqtisadi zonasından kənarda suya düşdüyünü açıqlayıb. Koreya Xalq Demokratik Respublikası sonuncu dəfə iyulun 1-də ballistik raket sınağı keçirib.

**AZƏRTAC-ın materialları əsasında**

**Həbibli İmran Cavid oğluna verilmiş MV № 149939 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

**Məsul katib**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
Rəşid HÜSEYNOV

Lisenziya № 361
Sifariş № 536
Nüsxə 4633